Qanun jurnalı, № 07 (297) 2019. Səh. 15.  ISSN 2218-9130

# "Toxunulmazlıq hüququ" anlayışının Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən açıqlaması

**Əlizadə Nuridə Elton qızı,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi**
**Ədliyyə Akademiyasının baş məsləhətçisi,**
**Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı,**

**UOT: 34.343.4**

***Açar sözlər:*** *toxunulmazlıq hüququ, şəxsiyyət əleyhinə cinayətlər, insan hüquqları, mənzil toxunulmazlığı, yazışma sirri*

***Ключевые слова:*** *право на неприкосновенность, преступления против личности, права человека, неприкосновенность жилища, тайны переписки*

***Keywords:*** *right to immunity, crimes against individual, human rights, housing immunity, correspondence*

İnsan və vətəndaşın hüquq və azadlıqları beynəlxalq sferada daim diqqət mərkəzində olan məsələdir. Bütün ölkələrin konstitusiyalarında insan və vətəndaşların hüquq və azadlıqları təsbit olunaraq onların əhəmiyyəti ön plana çıxmışdır. Konstitusiyada təsbit olunan bu hüquqlar və azadlıqlar müxtəlif təsnifatlara aid edilirlər: şəxsi hüquqlar; siyasi hüquqlar; sosial, iqtisadi və mədəni hüquq və azadlıqlar. Şəxsi hüquq və azadlıqlar içərisində müasir dövrümüz üçün toxunulmazlıq hüququ həddindən ziyadə əhəmiyyətlidir və ən çox təqibə məruz qalan hüquqlar hesab edilə bilər. Bu səbəbdən də sözügedən hüquqlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "Şəxsiyyət əleyhinə olan cinayətlər" adı bölmənin 21-ci fəsli ilə qorunmaqdadır. "İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər" adlanan fəsildə konstitusiyada nəzərdə tutulmuş insan hüquq və azadlıqlarının pozulmasına görə məsuliyyət müəyyən olunur. Burada 4 maddə toxunulmazlıq hüququna həsr olunmuşdur.

Biz toxunulmazlıq hüquqları əleyhinə olan cinayətlərdən bəhs edərkən, əvvəla, dəqiq şəkildə toxunulmazlıq hüququna nələrin aid edildiyini və ümumiyyətlə toxunulmazlığın anlamını açıqlamalıyıq.

Toxunulmazlıq fərdin bir canlı kimi fəaliyyət göstərməsi üçün vacibdir. Toxunulmazlıq, ümumiyyətlə, subyektin və ona aid olan xüsusiyyətlərin elə vəziyyətini ifadə edir ki, bu zaman onun fəaliyyəti üçün kənar nüdaxilə istisna olunur və fərd normal fəaliyyət göstərə bilir [9].

Toxunulmazlıq insan həyatının elə bir sferasını əhatə edir ki, onun icazəsi olmadan kimsə bu sferaya müdaxilə edə bilməz. Toxunulmazlıq hüququ kifayət qədər beynəlxalq və ölkədaxili qanunvericiklərdə öz əksini tapmış, baş verə biləcək pozuntuların aradan qaldırılması məqsədilə hüquqi aktlarda geniş formada təzahür etmişdir. Lakin müasir dövrümüz toxunulmazlığın qorunmasını çətinləşdirir. Belə ki hal-hazırda mövcud olan informasiya cəmiyyətində insan həyatının toxunulmazlığını qorumaq əvvəlki dövlərə nisbətdə qat-qat çətinləşmişdir. İnformasiya-kommunikasiya dövrünün üstünlükləri şübhəsiz danılmazdır. Texnika inkişaf etdikcə bir çox sahələrdə gözləgörünən nailiyyətlər əldə olunur, bu doğrudur, lakin hər bir müsbətin mənfisi olduğu kimi, texnikanın hədsiz inkişafı insan həyatına, toxunulmazlığına rahat formada müdaxilə etməyə imkan verən amilə çevrilmişdir.

Bütün bunları nəzərə alaraq toxunulmazlığın və o cümlədən toxunulmazlıq hüququnun əhəmiyyətli yeri daha da artmışdır. Toxunulmazlıq hüququ insan və vətəndaşın həyatının bir çox spektrini əhatə edir. Bunlara aid edə bilərik: şəxsi toxunulmazlıq, yəni ailə və şəxsi həyatın toxunulmazlığına aid məsələlər; mülkiyyətin toxunulmazlığı və s.

Toxunulmazlıqdan bəhs edərkən ilk növbədə şəxsi həyat yada düşür. Vətəndaşların birbaşa özü və yaxın saydığı insanlarla bağlı olan, açıqlanması onların mənafeyinə hər hansı şəkildə ziyan vuran hər cür həyati məsələlər şəxsi həyat anlayışı ilə ehtiva edilir.

Şəxsi toxunulmazlıq fərdin həyatının hər bir sahəsinə aiddir. Buraya fiziki cəhətdən toxunulmazlıq, əxlaqi-mənəvi həyatın toxunulmazlığı və psixi toxunulmazlıq aiddir.

Hər birimizin həyatında, sözsüz ki, heç kimə açıqlaya bilməyəcəyimiz sirrlər mövcuddur ki, bu sirrləri qorumaq üçün əlimizdən gələni etməyə hazırıq. Bəzən hansısa qanunsuz müdaxilə nəticəsində sirr dediyimiz şəxsi və ailə həyatına aid olan məqamlar ortaya çıxa bilir. Sözsüz ki, bu zaman cinayət hüququ, cəza sistemi işə düşür. Cinayət qanunvericiliyi profilaktik olaraq toxunulmazlıq hüququnun pozulmasının qarşısını almaq üçün müddəaları özündə cəmləşdirir. Lakin əsasən toxunulmazlıq hüququ pozulduqdan sonra – artıq cinayət baş verdikdən sonra məsuliyyət məsələsi ortaya çıxır. Əvvəla beynəlxalq konvensiyalarda və ölkələrin konstitusiyalarında toxunulmazlıq hüquqları ilə bağlı normalar əksini tapır, toxunulmazlığın nədən ibarət olması göstərilir. Cinayət hüquq normasında isə toxunulmazlıq hüququnun pozulmasına görə nəzərdə tutulmuş məsuliyyət tədbirləri öz əksini tapır.

Azərbaycan Respublikasının Konstitusiyasının 32-ci maddəsində şəxsi toxunulmazlıq hüququ, 33-cü maddədə isə mənzil toxunulmazlığı hüququ təsbit olunmuşdur. Lakin fərdin toxunulmazlığı yalnız bu maddələrdə deyil, həm də qismən təhlükəsiz yaşamaq hüququ adlı 31-ci maddəsində və şərəf və ləyaqətin qorunması hüququ adlı 46-cı maddədə də əks olunur.

Z.A.Əsgərova görə toxunulmazlıq şəxsin razılığı olmadan ona məxsus olan hər hansı bir şeylə bağlı müəyyən fəaliyyətin həyata keçirilməsini istisna edir. Toxunulmazlıq fərdin inkişafına şərait yaradır və onun bir şəxsiyyət kimi müstəqilliyini təmin edir. Fiziki toxunulmazlıq fərdin cisminin və bioloji tamlığının toxunulmazlığını, psixi toxunulmazlıq isə şəxsin psixikasının, onun orqanizminin psixi funksiyalarının toxunulmazlığını bildirir. Bu səhhətə və psixi sağlamlığa zərər vuran metodların tətbiqinin yolverilməzliyi, hipnoz və digər xüsusi metodlardan istifadə etməklə dindirmənin yolverilməzliyi, psixi təzyiq göstərmənin yolverilməzliyi şəklində təzahür edir [9].

Şəxsi toxunulmazlıq insan fəaliyyətinin ailə, məişət və intim münasibətlərdə həyat tərzini əhatə edir. İnsanın bu sahələrdə həyat fəaliyyətinə dövlət, ictimai təşkilatlar, ayrı-ayrı vətəndaşlar müdaxilə və nəzarət edə bilməzlər. İnsanın həyat tərzi, düşüncələri, tutduğu gündəlik, şəxsi qeydləri, telefon danışıqları, yazışmaları, onun sağlamlığı haqqında məlumatlar, bank hesabının sirləri, övladlığa götürmə, vəsiyyətnamə sirri onun şəxsi həyatının sirlərinə aiddir. Bu hüququn yeni komponentləri içərisində "yeni biotibbi" texnologiyanın tətbiqilə əlaqədar dövlət və özəl bölmələrdə şəxsi məlumatların yığımı və avtomatlaşmış işlənilməsini də qeyd edə bilərik [10].

Hər kəs düşüncələrinin, söylədiklərinin, hərəkətlərinin hamısının gizli qalmasını arzu edər. Lakin bu mütləqdir ki, öz həyatına müdaxilə edilməsini istəməyənlərin başqa insanların özəl həyatlarına da hörmət etmək borcu yaranır. Özəl həyat zamana, məkana hətta şəxsdən şəxsə dəyişir, konkret hallarda özəl həyatın qorunan dairəsini müəyyən etmək heç də asan deyil.

Cinayət məcəlləsinin 156-cı maddəsində nəzərdə tutulmuş şəxsi həyatın toxunulmazlığını pozma cinayətinin predmetini şəxsi və ailə həyatının sirri olan məlumatlar, belə məlumatları əks etdirən sənədlər təşkil edir.

İnsanın şəxsi həyatının üç başlıca sahədən formalaşdığı qəbul edilir:

- Şəxsin ümumi həyat sahəsi - başqaları tərəfindən bilinməsi mümkün olan, cəmiyyətə açıq olan bilgiləri əhatə edir;
- Şəxsin özəl həyat sahəsi - şəxsin özəl əlaqələri, ailəsi, tanışları, yaxınları və s. bu kimi şəxslərlə paylaşdığı məlumatlardır;
- Şəxsin gizli həyat sahəsi: şəxsin başqaları tərəfindən öyrənilməsini istəmədiyi davranış və hadisələrdən formalaşan sahədir.

Gizli həyat toxunulmaz olmaqla yanaşı şəxsi həyatın özəyini təşkil etdiyindən hər cür müdaxilələrdən qorunur.

Lukaşevaya görə şəxsi və ailə həyatının toxunulmazlığı hüququ şəxsin özü haqqında lazımi məlumat toplamaq, öz şəxsi, intim xarakterli məlumatların hamıya çatdırılmasına mane olmaq kimi dövlət tərəfindən verilmiş və təmin olunmuş imkanlarını bildirir. Şəxsi həyatı fərdin özü tərəfindən nəzarət edilən fiziki və ruhi sahə kimi təyin etmək olar, yəni o, xarici təsirdən azaddır. Qanunvericilik bu sferaya toxuna bilməz və onu hər hansı bir qeyri-qanuni müdaxilədən mühafizə etməyə yönəlmişdir. Qanun şəxsi həyatın toxunulmazlıq hüdudunu, qeyri-qanuni müdaxilədən onu mühafizə etməyin formalarını müəyyənləşdirir. Demokratik sivil dövlət yalnız müstəsna hallarda qanun və xüsusi məhkəmə qərarlarının əsasında insanın şəxsi həyatının toxunulmazlığını poza, onun yazı, telefon danışığı və ya digər məlumatlarının məzmunu ilə tanış ola bilər [13].

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcələsinin 199.2-ci maddəsinə əsasən prosessual hərəkətlərin gedişində hər hansı şəxsin şəxsi həyatına aid məlumatların, habelə onun gizli saxlanılmasını lazım bildiyi digər şəxsi xarakterli məlumatların lüzumsuz toplanılmasına, yayılmasına və onlardan istifadə edilməsinə yol verilmir.

"Əhalinin sağlamlığının qorunması" haqqında qanuna əsasən vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar barədə informasiya həkim sirrini təşkil edir. Vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir.

Nəzərdən keçirdiyimiz hüququn əhatə dairəsi genişdir, şəxsi və ailə həyatının yanında yazışma sirrini də qoruyur. "Yazışma sirri" dedikdə insanların yazdıqları məktubların, yazışmaların ictimai şəkildə nümayiş etdirilməsi və nəşr edilməsinin qanunla qadağan edilməsi və həmin hüququn həyata keçirilməsinə dövlət təminatının verirməsi nəzərdə tutulur. Cinayət Məcəlləsinin 155-ci maddəsinin qüvvəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrinin pozulması hallarına şamil edilmir. Belə hallara poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması, onların baxışı, götürülməsi və yoxlanılması, telefon danışıqlarına qulaq asılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, məhkumların məktublarının yoxlanılması kimi əməliyyat-axtarış və prosessual tədbirlər aiddir. Göstərilən hərəkətlər istintaq, təhqiqat və məhkəmə orqanlarının əsaslandırılmış qərarı əsasında aparılmalıdır, əks təqdirdə cinayət tərkibi yaradır [4].

Məlumdur ki, vətəndaşın şəxsi həyatı barədə məlumat toplamağın belə məcburi zərurəti yalnız cinayətə qarşı mübarizə, həmçinin sağlamlığın və digər vətəndaşların təhlükəsizliyinin mühafizəsi məqsədləri ilə yarana bilər. Bu hüququn məzmununa, həmçinin, elan edilməsi xoşagəlməz hal hesab olunan şəxsi sirrlərin mühafizəsi daxildir (vəsiyyət sirri, övladlığa götürmə, həkim diaqnozları, pul qoyuluşu sirri, gündəlik yazıları və s.). Cinayət Məcəlləsinin 175-ci maddəsində nəzərdə tutulmuş övladlığa götürmə sirrini yayma da şəxsi toxunulmazlıq hüquqlarına xələl gətirir.

İnsanın şəxsi və ailə həyatına müdaxilə etməmək prinsipi cəmiyyətin hər bir üzvünün şəxsi həyatı haqqında məlumatların toplanması və hazırlanmasına nəzarətin dövlət tərəfindən təmin edilməsini tələb edir.

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununun 3-cü maddəsində şəxsi toxunulmazlıq hüququnun məhdudlaşdırıla biləcəyi hallar göstərilir: dövlət təhlükəsizliyi mənafeləri, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması, cinayətlərin qarşısının alınması, iğtişaşların qarşısının alınması, ictimai qaydanın təmin edilməsi və ölkənin iqtisadi rifahı mənafeləri üçün.

Qeyd etdiyimiz kimi, insan və vətəndaşın toxunulmazlıq hüquqları əleyhinə olan cinayətlərin son dövrlər artması bu hüququn daha da ön plana çəkilməsinə səbəb olmuşdur. Belə ki, Konstitusiyanın şəxsi toxunulmazlıq hüququnu nəzərdə tutan 32-ci maddəsi dəyişilməz qalmamışdır. Zamanın tələbinə uyğun olaraq sözügedən maddəyə 2 dəfə - 2009 və 2016-cı illərdə keçirilən referendumlarla əlavələr edilmişdir. 32-ci maddənin əvvəlki redaksiyasında deyilirdi: "I.

Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır. II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa şəxsi həyata müdaxilə etmək qadağandır. III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər".

18 mart 2009-cu il tarixdə keçirilmiş referendumla maddənin ikinci hissəsində qanunla nəzərdə tutulan hallardan başqa müdaxiləsi qadağan edilən obyektlərə "şəxsi həyat"la yanaşı "ailə həyatı" da əlavə edilmişdir. Qeyd edək ki, insan hüquqlarına dair bütün əsas beynəlxalq müqavilələrdə şəxsi həyatla yanaşı, ailə həyatı da mühafizə olunan dəyər kimi nəzərdə tutulmuşdur.

Maddənin ikinci hissəsinə əlavə edilən yeni cümlə ("Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır") şəxsi və ailə həyatına qanunsuz müdaxilənin yolverilməzliyi barədə mövcud mətndə olan müddəanın məntiqi davamıdır. Hər bir şəxsə onun özəl həyatına hər hansı qanunsuz müdaxilənin qarşısını almaq və belə müdaxilə baş verdikdə dəymiş zərərin əvəzinin ödənilməsinə nail olmaq üçün səmərəli müdafiə vasitələri təmin edilməlidir. Bu əlavə dövlətin hüquq və azadlıqlara verdiyi təminatın bariz isbatıdır.

Üçüncü hissəyə edilən əlavəyə görə qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Əslində bu müddəa heç də yeni deyildir, belə ki, o, 32-ci maddədə təsbit olunmuş şəxsi və ailə həyatına hörmət edilməsi hüququnun beynəlxalq səviyyədə tanınmış məzmunundan irəli gəlir.

2016-cı ildə isə sözügedən maddəyə elektron dövlətin tələbatına uyğun olaraq daha 3 hissə əlavə olunmuşdur:

VI. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.

VII. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.

VIII. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.

Konstitusiyanın 32-ci maddəsinə edilən əlavələr mahiyyətcə hər bir kəsin şəxsi toxunulmazlıq hüququnun daha etibarlı təminatına, bu sahədə prinsiplərin daha da dəqiqləşdirilməsinə xidmət edir. Həmçinin maddəyə edilən əlavənin məqsədi kütləvi informasiya vasitələrinin fəaliyyətində özünü göstərən neqativ halların aradan qaldırılmasına xidmət etməkdir.

AR Cinayət Məcəlləsinin 157-ci maddəsinə əsasən mənzil toxunulmazlığını pozma cinayət hesab olunur. Mənzil toxunulmazlığı hüququ onu bildirir ki, heç kim orada yaşayanların iradəsinin əksinə olaraq qanuni əsas olmadan mənzilə girə bilməz.

Azərbaycan Respublikasının Konstitusiyasının 31-ci maddəsinə görə, şəxsin mənzilinə qəsd etmək, qadağan olunduğu, 33-cü maddəsində hər kəsin mənzil toxunulmazlığı hüququ olduğu və qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəsin mənzilə daxil ola bilməyəcəyi qeyd edilmişdir. Bundan başqa, Konstitusiyasının 43-cü maddəsinə görə də heç kəs yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz. Mənzil məcəlləsinin 5-ci maddəsinə əsasən mənzilə orada yaşayanların razılığı olmadan daxil olmağa qanunla nəzərdə tutulmuş hallarda və qaydada qəza vəziyyəti, təbii fəlakət, kütləvi iğtişaş zamanı və ya fövqəladə xarakterli digər şəraitdə yalnız vətəndaşların həyatı və (və ya) onların əmlakının xilas edilməsi, onların şəxsi təhlükəsizliyi və ya ictimai təhlükəsizliyin təmin edilməsi, habelə cinayət törədilməsində şübhəli bilinən şəxslərin saxlanılması, törədilməsində şübhə olmayan cinayət faktlarının qarşısının alınması və ya törədilmiş cinayətin, yaxud baş vermiş bədbəxt hadisənin şəraitinin müəyyənləşdirilməsi məqsədilə yol verilir.

Toxunulmazlıq hüquqlarının qorunması ilə bağlı mübarizədə ölkəmiz fəal tədbirlər görməkdədir. Qeyd etdiyimiz kimi, ölkənin əsas qanununu olan Konstitusiya ilə yanaşı bir çox qanunvericilik aktlarında bu hüquq təminat altına alınır. Nəzərdən keçirdiyimiz qanunvericilik aktları ilə yanaşı toxunulmazlıq hüquqlarının təsbit olunduğu aşağıdakı qanunları da qeyd edə bilərik: "İnformasiya əldə etmək" haqqında Qanunun 38-ci maddəsində əldə olunmasına məhdudiyyətlər qoyulan şəxsi və ailə həyatına dair məlumatların siyahısı göstərilir. "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun 4-cü maddəsinə əsasən hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır. "Kütləvi informasiya vasitələri haqqında" Qanuna əsasən cinayət etməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayanların və ya qanuni nümayəndələrinin razılığı olmadan onların şəxsiyyəti barədə hər hansı məlumatın yayılmasına yol verilmir. "Poçt haqqında" Azərbaycan Respublikasının qanununun 13-cü maddəsinə görə, poçt göndərişləri ilə verilən məlumatlar haqqında informasiyalar, habelə bu göndərişlər və məlumatlar yalnız onları göndərənlərə və ünvan sahiblərinə verilə bilər.

Qeyd etdiklərimizə əsasən bir çox normativ aktlarda toxunulmazlıq hüququnun əhəmiyyəti vurğulanır. Sözügedən hüquqlar daim diqqət mərkəzində olaraq qalmaqdadır. Bu baxımdan cinayət məcəlləsinin toxunulmazlıq əleyhinə olan cinayətləri nəzərdə tutan maddələri dəfələrlə dəyişikliyə məruz qalmışdır. Maddələrin sanksiyaları artırılmışdır. Son dəyişiliklərdən sonra 155, 156 və 157-ci maddələrin 1-ci hissələrinin sanksiyalarında min manatdan iki min manatadək cərimə müəyyən edilmişdir. Bu dəyişikliyi mütərəqqi hesab edirik, çünki cərimə cəzası həmin maddələrin sanksiyalarında alternativ cəza kimi nəzərdə tutulduğu üçün çox zaman tətbiq olunur. Əvvəlki cərimə miqdarı isə çox aşağı idi (2017-ci il 31 may dəyişikliklərinə qədər yüz manatdan beş yüz manatadək cərimə nəzərdə tutulmuşdu). Fikrimizcə sanksiyanın ağırlaşdırılması ilə yanaşı, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə toxunulmazlıq hüquqları əleyhinə olan cinayətlər barədə müntəzəm olaraq maarifləndirmə tədbirləri aparılmalıdır.

## İstifadə edilmiş mənbələr:


1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il. Bakı: Qanun, 2016, 72 s.
2. Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında 24 dekabr 2002-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu /Azərbaycan qəzeti, 4 yanvar 2003, 2 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. http://www.e-qanun.az/code/11
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. "Digesta" nəşriyyatı, Bakı-2008. 1006 s.
5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi http://www.e-qanun.az/code/14
6. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi http://www.e-qanun.az/code/19
7. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli qanunu http://www.e-qanun.az/framework/4078
8. Əməliyyat-axtarış fəaliyyəti haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli qanunu http://www.e-qanun.az/framework/2938
9. Əsgərov Z.A. Konstitusiya hüququ, Dərslik, Bakı:Bakı Universiteti,2006, 698s.
10. Hacılı R., Məmmədli Ə. Gün işığı bələdçisi. Bakı: Media Hüququ İnstitutu, 2006, 309 s.
11. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli qanunu http://www.e-qanun.az/framework/11142
12. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanunu http://www.e-qanun.az/framework/30
13. Lukaşeva E.A. İnsan hüquqları. Rus dilindən tərcümə edən Ş.İ.Əliyev. Bakı, Şirvannəşr, 2005. 572 s.
14. Ömərov V. Hüquqi dövlət və vətəndaş cəmiyyəti: insan və vətəndaş hüquqları. // Səs, 2011, 29 sentyabr. 7 s.

15. Poçt haqqında Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli qanunu http://www.e-qanun.az/framework/5457

**Ализаде Нурида Элтон гызы**

**Раскрытие понятия «право на неприкосновенность» в соответствии с уголовным законодательством Азербайджанской Республики**

**Резюме**

Права и свободы человека и граждан всегда находятся в центре внимания международного сообщества. В рамках личных прав и свобод право на неприкосновенность в современную эпоху чрезвычайно важно и может рассматриваться как наиболее преследуемые права. Таким образом, защита иммунитета человека в современном информационном обществе значительно сложнее, чем в предыдущие периоды. В статье рассматриваются преступления против иммунитета, описывается значение права на иммунитет, неприкосновенность жилища и конфиденциальность переписки, которые включены в понятие иммунитета.

**Alizade Nurida Elton**

**Disclosure of the notion of "the right to immunity" in accordance with the criminal legislation of Republic of Azerbaijan**

**Summary**

The rights and freedoms of a human being and citizens are always in the focus of international attention. Within personal rights and freedoms, the right to immunity for the modern era is extremely important and may be considered as the most persecuted rights. Thus, the protection of the human immunity in the current information society is considerably more complicated than previous periods. The article deals with crimes against immunity, describes the meaning of the right to immunity, the inviolability of housing, and the confidentiality of correspondence that are included in the concept of immunity.